# TƏDRİS PROSESİNDƏ MOTİVASİYA SAHƏSİNİN İDARƏ OLUNMASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Südabə İsgəndərova,**
*Akademik Z. Əliyeva adına MOM-un*
*Konsultativ poliklinika şöbəsinin psixoloqu*
E-mail: iskenderova.sudabe @yandex.ru

**Rəyçilər:** *ped. fəls. dok.* D.Ə. Dostuzadə,
*ped. fəls. dok.* E.M. Kərimova

***Açar sözlər:*** *motivasiya, idrak maraqları, emosiya, şəxsiyyət, təlim prosesi*
***Ключевые слова:*** *мотивация, познавательные интересы, эмоции, личность, процесс обучения*
***Key words:*** *motivation, interests of cognition, emotions, personality, learning process*

Təlim fəaliyyətinin səmərəliliyi ilk növbədə ayrı-ayrı fənlərin tədrisi prosesində şagirdlərdə daxili motivasiyanın formalaşdırılması və dərk olunması üçün optimal şəraitin yaradılmasından asılıdır. Təlim fəaliyyətində dərsə motivləşmə nəticəsində şagirdlərdə psixoloji səfərbərlik, məqsəd aydınlığı, intensiv maraq yaranır və dərsin sonrakı mərhələlərinə doğru istiqamətlənmənin əsası qoyulur. Deməli, şagirddə idrak fəallığı yaratmağın və dərs boyu bu fəallığı saxlamağın yolu motivin qanunauyğun şəkildə inkişaf etdirilməsidir.

Davranışın mexanizminin öyrənilməsi motivasiyanın məzmun və prosessual nəzəriyyəsinin yaranmasına səbəb olmuşdur. Motivasiyanın məzmun nəzəriyyəsi müəyyən davranışın daxili faktorları ilə müəyyən olunur. Bu nəzəriyyəyə A. Maslounun ierarxik nəzəriyyəsi də daxildir. A. Maslouna görə, insanın ali tələbatı özünü aktuallaşdırmaya, özünü reallaşdırmaya olan tələbatdır. İstənilən ödənilməmiş ehtiyac davranışı motivasiya edir, tələbat onun başlıca motivasiyasına çevrilir. Uzunmüddətli motivasiya isə insanın özünü reallaşdırmasına, özünü təkmilləşdirməsinə daxili cəhdidir.

Fəal təlim prosesində problemin qoyuluşu ilə şagirdin özünü aktuallaşdırmasına, özünü reallaşdırmasına tələbat yaranır. Düzgün motivləşmə şagirdin bütün potensial qüvvəsini səfərbər etməyə imkan verir və davamlı iradi cəhd göstərmək sayəsində həm fəaliyyəti daha müvəffəqiyyətlə yerinə yetirmək olur, həm də müntəzəm cəhd iradi sferanın inkişafına səbəb olur ki, bu da şəxsiyyətin düzgün formalaşmasına kömək edir.

Təlim fəaliyyətində hər bir yaş mərhələsinə uyğun motivasiyanın qoyulması vacibdir. Bu zaman şagirdin həmin yaş dövrü üçün səciyyəvi olan maraqlarını, imkanlarını (inkişaf səviyyəsinə uyğun, lakin asan olmayan) nəzərə almaq lazımdır.

Təlim fəaliyyətində motivasiya şagirdi düşünməyə yönəldir. İdrak tələbatı ilə başlayan motivasiya məqsədin qoyulması ilə tam formalaşır. Problemli vəziyyət şagirdin bu haqda biliklərini yada salmağa, onları qarşılaşdırmağa, seçməyə məcbur edir, nəticədə təfəkkür fəallaşır. Daxili motivasiyanın inkişafı nəticəsində şagird qarşısına məqsəd qoyur. Beləliklə, motivasiyanın digər psixoloji sahələrlə əlaqəli şəkildə formalaşması prosesini aşağıdakı kimi göstərmək olar.




I mərhələdə müəllim tərəfindən motivasiya qoyulur.

II mərhələdə şagirdin özündə daxili motivasiya yaranır.

Həm idrak, həm də icra fəaliyyətinin səmərəliliyi üçün motivləşməni optimal səviyyəyə çatdırmaq lazımdır.

Prof. Ə.Ə. Əlizadə motivlərin məzmun baxımından xarakteristikasını bu cür vermişdir: (1, 165).

1. Təlim şagird üçün şəxsi məna kəsb etməli.

2. Təlim şagird üçün şəxsi məna kəsb etdikcə motiv fəal xarakter daşıyır və o, səylə oxumağa başlayır.

3. Aparıcı motiv istiqamətindən asılı olaraq fəaliyyət prosesində müxtəlif rol oynayır.

4. Motivin müstəqil şəkildə əmələ gəlməsi və təzahür etməsi.

Burada iki cəhəti fərqləndirmək olar:

a) hər hansı motiv şagirdin özünün fəaliyyətində daxili proses kimi əmələ gəlir;

b) motiv yalnız yaşlıların köməyi şəraitində xarici proses kimi əmələ gəlir, yəni başqa adamların təhriki ilə işə başlayır.

5. Dərk olunmayan təhriklər çox vaxt sosial cəhətdən əhəmiyyətli olan motivlərin aydın dərk olunmasına mənfi təsir göstərir. Odur ki, təlim fəaliyyətində müəllim şagirdin öz fəaliyyət və davranış motivlərini necə əsaslandırmasını, öyrənməli, onları təhlil edib əməli nəticələr çıxarmalıdır.

6. Eyni bir motiv müxtəlif fəaliyyət tiplərinə, tədris fənlərinə və tədris tapşırıqlarına şamil edilməli.

Beləliklə, təlim fəaliyyətində motivasiyanın formalaşması üçün motiv bir çox inkişaf mərhələlərini keçməlidir. Burada şəxsi mənanın formalaşmasına xüsusi diqqət yetirmək lazımdır. Təlim prosesində obyektin əhəmiyyəti də mənimsənilir. Obyektin əhəmiyyəti və mənası arasındakı nisbət dəyişdikcə, yeni, daha yüksək motivlər əmələ gəlir. Şəxsi məna kəsb edən motiv fəaliyyət prosesində dərk olunduqca şüurlu məqsədə çevrilir və fəaliyyətin obyektiv məntiqinə tabe olur.

Şagirdlərə cisim və hadisənin subyektiv əhəmiyyətinin aydın başa düşülməsi üçün yönəldici suallar verilir. Suallar əsasında şagird təlim obyektlərinin obyektiv və subyektiv əhəmiyyətini özü üçün aydınlaşdırıb dərk etməlidir. Bir çox hallarda şəxsi məna ilə əhəmiyyət ziddiyyət təşkil edir və ya şəxsi məna dərk olunmamış qalır. Şəxsi məna kəsb edən motiv yüksəldikcə şagirdin fəallığı da artır və öz tələbatına (idrak, təlim və ya yaradıcılıq tələbatına) münasibəti dəyişir. Fəaliyyətə yalnız şəxsi deyil, həm də ictimai borcu yerinə yetirmək baxımından yanaşmaq tələbata olan münasibəti dəyişdirir, təlim fəaliyyətində şagirdin zehni və fiziki qüvvələrinin gərginliyini artırır, daha yüksək nəticə əldə edilməsini şərtləndirir. Fəaliyyətə bu cür yanaşma aparıcı fəaliyyətin kollektivçi və ya eqoistik xarakter daşımasından asılıdır.

Şəxsi məna dərk olunduqca, yəni şagird təlim obyektini şəxsi həyatının reallığı ilə əlaqələndirir. Bu da şüura ehtiraslılıq verir və özünü emosiya şəklində göstərir. Deməli, emosiya şəxsi mənanın yaranması zamanı onun səviyyəsini müəyyən optimal həddə saxlayan bir alət kimi çıxış edir. K. İzard diferensial emosiyalar nəzəriyyəsində təməl emosiyanın fərqləndirici xüsusiyyətlərindən biri kimi emosiyanın insanın davranışına təhrikedici və motivləşdirici təsirdə olduğunu göstərmişdir. P.V. Siminov isə özünün informasion nəzəriyyəsində göstərmişdir ki, emosiyalar tələbatın ödənilməsi üçün informasiyanın çatışmazlığı və ya bolluğunun nəticəsində yaranır. Emosional gərginliyin dərəcəsi tələbatın qüvvəsindən və məqsədin əldə olunması üçün zəruri olan defisitin böyüklüyündən asılıdır (2, 8).

Fikri fəaliyyət prosesində şagirddə yaranan emosiyalar intellektual emosiyalardır. R. Dekart, B. Spinoz və T. Ribo, İ. A. Vasilevə görə, intellektual emosiyaların strukturu müxtəlifdir, lakin təəccüb hissinə həmişə rast gəlmək mümkündür. Hələ Aristotel təəccübü idrakın təhrikedicisi adlandırmışdır. Dekart isə qeyd edir ki, bir əşyanın dəyərini müəyyən etməzdən əvvəl təəccüblənirik. Deməli, təəccüb ehtirasların ən birincisidir. Lakin, K. İzardın da göstərdiyi kimi təəccüb davranışı uzun müddətli motivləşdirə bilmir.

Emosiyalar və hisslər idrak prosesini fəallaşdırır. V. Vund hissləri, eləcə də emosiyaları təsəvvürlərin cərəyanına bilavasitə təsiri ilə xarakterizə olunan daxili dəyişiklik kimi görürdü. Deməli, emosiyalar təsəvvürü gücləndirir. Təlim prosesində motiv elə bir xüsusiyyətə malik olmalıdır ki, (əgər o ideal predmetdirsə) şagirddə müəyyən təəssürat oyatsın və təlim obyektini təsəvvürünə gətirə bilsin. Eyni zamanda V. Vund təsəvvürlərin də emosiyalara müəyyən dərəcədə təsir etdiyini güman edirdi.

Sonrakı mərhələdə motiv daxili proses kimi inkişaf edir. Əvvəlcə müəllim tərəfindən xarici proses kimi qoyulan motivasiya artıq bu

mərhələdə şagirdin özünün daxili prosesinə çevrilir. Motivin daxili proses kimi inkişafının özünəməxsus çətinlikləri var. Ümumiyyətlə, işin başlanğıcında daxili motivasiyanın formalaşmasına xüsusi fikir verməк lazımdır. Daxili motivasiya elə psixoloji halətdir ki, şagird bilavasitə özünün fəaliyyətindən həzz almağa başlayır. Fəaliyyət şagirdin sərvət meyllərində xüsusi yer tutur və onun üçün şəxsi məna kəsb edir. Xarici və daxili motivlərin öyrənilməsi və nəzərə alınması şagirdlərin təlim motivasiyasının formalaşması prosesinə kömək edir.

Son mərhələdə motivasiya dərk olunur. Motivasiyanın dərk olunma səviyyəsi motivin inkişafının ayrı-ayrı mərhələlərinin, onun funksiyalarının, strukturunun subyektiv olaraq analiz-sintez olunması ilə müəyyən olunur. Problemin həllindən əvvəl motivin tam dərk olunması şagirdin təlimə motivasiyasını daha da gücləndirir. Məsələn, motivasiyanın qoyuluşu zamanı şagirddə müəyyən enerjinin oyanması (təhrikedici funksiya), həmin enerjinin müəyyən obyektə yönəlməsi (istiqamətlənmə), tənzimetməsi, nəzarət etməsi, onun qiymətləndirilməsi dərk etməyə aiddir. Bir-birinə zidd olan təhriklərin təhlil və tərkib edilməsi, müqayisə edilməsi, seçmək, nəhayət qərar qəbulu motivlərin dərk olunmasına, başqa sözlə motivləşməyə səbəb olur. Bəzən isə praktiki olaraq iş icra olunarkən eləcə də icra olunduqdan sonra idrak fəaliyyətinin motivi dərk edilir.

Davranış motivlərinin təşəkkülü, müddəti, davamlılığı, istiqaməti məqsədə çatdıqdan sonra tamamilə yox olmur, yeni obyektə, hadisələrə yönəlir, fəaliyyətin səmərəliliyini yüksəldir. Deməli, motivasiya şagirdin təlim fəaliyyətində mühüm rol oynayır.

Tədris prosesinin motivasiya mərhələsində verilən yönəldici suallar sayəsində şagirddə şəxsi mənanın yaranmasına, daxili motivin fəallaşmasına, motivin inkişaf etməsinə, onun dərk olunmasına, aparıcı motivin kollektiv xarakter almasına çalışmaq lazımdır. Motivin dərk olunması təlimin obyektinə qarşı motivasiya olunmaqla yanaşı, şagirdin digər keyfiyyətlərinin də formalaşmasına səbəb olur (məsələn: qərar qəbulu, planlaşdırma, dərin düşünmə, təhlil etmə, yaradıcı yanaşma, özünün bilik və bacarıqlarının səviyyəsini müəyyənləşdirməyə və dərk etməyə).

Şagirdi düşünməyə yönəltmə mərhələsində (motivasiya, tədqiqat sualının tapılması və s.) hafizənin müxtəlif növlərinin inkişaf etdirilməsi, eyni zamanda qavrayış təsəvvürlərinin, təxəyyülün inkişafını təmin edəcək suallar qoyulmalıdır. Həmçinin şagirdin hiss və emosiyalarının yüksəldilməsinə nail olunmalıdır. Çünki motivasiya prosesində təfəkkür, hiss və emosiyalar qarşılıqlı şəkildə fəaliyyət göstərirlər. Təfəkkür motivin obyektivliyini dərk etməyə, məna və əhəmiyyətini müəyyənləşdirməyə; hiss və emosiyalar isə işin icrasının müvəffəqiyyətinin artırılmasına kömək edir. Motivasiya prosesində fikri proseslərin düzgün əlaqələndirilməsi motivlərin davamlığını artırmağa kömək edir. Müntəzəm olaraq təlim motivlərinin təhlil edilməsi, özünün aparıcı motivini "kəşf etməsi" və motivlərin inkişaf mərhələlərinə uyğun öz psixoloji vəziyyətlərini təhlil etmələri şagirdin özünü dərk etməsini asanlaşdırır.

Daxili motivasiyanın formalaşması şagirddə təlim üçün əsas olan daxili fəallığın artmasına səbəb olur ki, bu da özünü qavrayış, emosiya və iradi vərdişlərdə göstərir. Motivasiyanın istiqamətindən və ya aparıcı motivdən asılı olaraq hər üç vərdiş dəyişir. Şagirdin təlim obyektini qavraması, onun nəyə diqqət yetirməsi və nəyi hiss etməsi, baş verənləri necə qiymətləndirməsi, düşünülmüş qərar qəbul etməsi, dərindən düşünmək vərdişi formalaşır.

Beləliklə, dəfələrlə təkrarlanan motivasiya tədricən şəxsiyyətin xarakter əlamətinə çevrilir. Bu əlamətlərə uğur qazanılması və ya uğursuzluq motivasiyasını, eyni zamanda özünü qiymətləndirmə, iddia səviyyəsi, xarici və daxili nəzarət lokusunu aid etmək olar. Deməli, təlim fəaliyyətində motivasiya sahəsinin idarə olunması şagirdin bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

**Problemin aktuallığı:** Təlim fəaliyyətinin səmərəliliyi şagirdlərdə motivasiyanın düzgün formalaşdırılmasından və idarə edilməsindən asılıdır.

**Problemin yeniliyi:** Motivasiyanın dərk olunma mexanizmi, onun inkişafının şagird şəxsiyyətinin formalaşmasına təsiri məsələləri, şagirdin motivasiya sahəsini inkişafetdirici amillər və onun idarə olunmasının psixoloji xüsusiyyətləri verilmişdir.

**Problemin praktik əhəmiyyəti:** Müəllim məqalədə verilmiş məlumatları tədris prosesində tətbiq edərək şagirddə motivasiyanın düzgün inkişaf etdirilməsinə nail ola bilər.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.
2. Hüseynova E.Q. Musayeva T.M. Emosiya və motivasiya. Bakı, 2003.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.
4. Əliyev B.Ş. və Cabbarov P.V. Təhsildə şəxsiyyət problemi. Bakı, 2008.


**С.Н. Искендерова**

## ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ УПРАВЛЕНИЯ МОТИВАЦИЕЙ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

***РЕЗЮМЕ***

Основным способом создания когнитивной деятельности в процессе обучения и поддержания этой деятельности на протяжении всего курса является надлежащее развитие мотивированных вопросов. Ученики стимулированы мотивацией урока, психологической мобилизацией, ясностью цели, интенсивным интересом и основой направления к следующим этапам урока.

**S.N. Isgandarova**

## PSYCHOLOGICAL FEATURES OF MANAGEMENT MOTIVATION IN THE TRAINING PROCESS

***SUMMARY***

Basic way of the creating activity of reason in the teaching process and of the keeping this activity of lesson is developing the motivation with the turning questions. The psychological motivation, develop the clearity of aim. It develops intensive interest of students. It founds the bases directions to the next stages of lesson.

**Redaksiyaya daxil olub:** 08.02.2018